# Azərbaycanda torpaqşünaslığın inkişafına böyük töhfələr vermiş alim

*Dövlət başçısı cənab İlham Əliyev "Akademik Vladimir Volobuyevin 110 illiyinin qeyd edilməsi haqqında" 14 may 2019-cu il tarixli sərəncam imzalamışdır. Sərəncamda AMEA-ya tapşırılmışdır ki, akademik V.Volobuyevin anadan olmasının 110 illiyi ilə bağlı tədbirlər planı hazırlasın və həyata keçirsin.*

*Əməkdaşımız akademik Volobuyevin yetirmələrindən biri,* ***AMEA-nın müxbir üzvi, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Əlövsət Quliyevlə*** *görüşərək görkəmli alimin həyatı və elmi yaradıcılığı, Azərbaycan torpaqşünaslığına verdiyi töhfələr haqqında oxucularımıza daha ətraflı məlumat verməyi xahiş etmişdir. Ə.Quliyev demişdir:*

- Bu il görkəmli Azərbaycan alimi akademik Vladimir Raradionoviç Volobuyevin anadan olmasının 110 illiyidir. Dövlət başçısının Volobuyevin yubileyinin qeyd olunması ilə bağlı Sərəncamı bütövlükdə elm adamlarına göstərilən yüksək diqqət və qayğının təzahürüdür. Bu, bir daha onu göstərir ki, elmin inkişafında xidmətləri olan heç bir görkəmli alimimiz unudulmur, onların xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Möhtərəm Prezidentimizin görkəmli elm adamlarına göstərdiyi həssas münasibət gənc alimlərə böyük stimul olur, onları daha sanballı tədqiqatlar aparmağa sövq edir. Prezidentin Sərəncamında qeyd olunduğu kimi, akademik Vladimir Volobuyev torpaqların meliorasiyası, geomorfoloji xəritələrin tərtibi, torpaqla iqlimin qarşılıqlı əlaqəsi və torpaq ekologiyasına dair böyük nəzəri-təcrübi əhəmiyyətə malik sanballı araşdırmaların nəticələri kimi müəyyən etdiyi prinsip və apardığı hesablamalarla, irəli sürdüyü nəzəriyyə və işləyib hazırladığı təsnifatlarla Azərbaycanda torpaqşünaslığın inkişafına böyük töhfələr verib. Onun rəhbərliyi altında yetişən yüksəkixtisaslı kadrlar tərəfindən respublikada torpaqşünaslıq üzrə çox sayda əsaslı tədqiqat işləri uğurla yerinə yetirilib.

Alimin torpaqşünaslıq elmində yaratdığı yeni bir istiqamət - "Torpaq ekologiyası" və "Torpaqəmələgəlmə energetikası" dünya alimləri tərəfindən qəbul olunmuş bir xidmətdir. Bu gün bəşəriyyətin ən önəmli problemlərindən olan ətraf mühitin mühafizəsi - ekologiyasının məhz Volobuyev tərəfindən elmə gətirilməsinə və onun sübut olunmasına heç kəs şübhə etmir.

1960-cı illərin birinci yarısında V.R.Volobuyev tərəfindən "Torpaq ekologiyası" adlı elmi əsəri yazıldı, daha sonra isə "Dünya torpaq sistemi" və "Torpaq energetikasına giriş" kitabları torpaqşünaslıq sahəsində yeni bir istiqamətin açılmasına səbəb oldu. O, yazılarında torpaq ekologiyasının müstəqilliyini, torpaq və onun formalaşmasında ətraf mühitin təsiri və onlar arasında təbii əlaqələr nəzəriyyəsini irəli sürərək vacib bir məsələni - "torpaq əmələ gəlməsində təbii əlaqələri müəyyənləşdirməklə torpaqşünaslıqda yeni bir şöbəni elmi əsaslarla təsdiq etdi. Beləliklə, orqanizmlər, torpaq, iqlim, relyef və insan faktorlarının birgə təsirini öyrənən torpaq ekologiyası elmi gündəmə gətirdi. Nəticədə torpaq ekologiyasının əsas müddəalarını "torpaq-iqlim" sistemində torpaq formalaşması faktorunu aşkar edilmiş üsulların elmi əsaslandırdı.

V.R.Volobuyev torpaq və iqlim arasındakı hidrotermik əlaqələr sistemini inkişaf etdirmiş, dünyanın torpaqlarının elmi əsaslar üzrə təsnifatı kitabını yazmışdır.

**- Mümkünsə, görkəmli alimin həyatı haqqında Azərbaycan oxucularına daha ətraflı məlumat verək.**

- Azərbaycan Respublikasından ilk dəfə SSRİ EA-nın müxbir üzvü seçilən, Azərbaycan EA-nın həqiqi üzvü, iki dəfə SSRİ Dövlət mükafatı laureatı Vladimir Radionoviç Volobuyev 1909-cu il iyul ayının 25-də Rusiyanın Krasnodar şəhərində anadan olmuşdur. 1926-30-cu illərdə Kuban Kənd Təsərrüfatı İnstitutunda təhsil alarkən yay tətillərində professor S.İ.Tyuremnovun rəhbərlik etdiyi ekspedisiyanın tərkibində Azərbaycana gəlmiş, Muğanda torpaqların su-fiziki xassələrini və duzluluğunu öyrənmək üçün tədqiqatlar aparmışdır. 1930-cu ildə institutu bitirdikdən sonra təyinatını Azərbaycana almış və ömrünün sonuna kimi onun həyatı Azərbaycanla bağlı olmuşdur.

1937-1939-cu illərdə Cənubi Qafqaz Su Təsərrüfatı Layihə İnstitutunda (indiki Azərbaycan Su Təsərrüfatı Layihə İnstitutu) torpaq-meliorasiya sektorunun direktoru işləmişdir. 1939-cu ildə V.R.Volobuyev SSRİ EA Azərbaycan filialının Torpaqşünaslıq sektorunda torpaqlar fizikası seksiyasının rəhbəri olmuş, sonra isə ömrünün sonuna kimi Azərbaycan Elmlər Akademiyasında çalışmışdır. O, Azərbaycan EA-da böyük elmi işçi vəzifəsindən vitse-prezident vəzifəsinə qədər böyük bir yol keçmişdir.

V.R.Volobuyev Muğan və Salyan düzlərində şorlaşmış torpaqların duzlardan yuyulmasına aid apardığı işlərin təhlilini verərək 1944-cü ildə namizədlik dissertasiyasını, Azərbaycanın şorlaşmış torpaqları və onların meliorasiyasına aid işləri ümumiləşdirərək 1945-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1950-1952-ci illərdə Azərbaycan EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini, 1952-1957-ci illərdə həmin institutun direktoru vəzifəsində işləmişdir.

1980-ci ildən 1987-ci ilin sonuna (ömrünün sonuna) kimi Azərbaycan EA-nın vitse-prezidenti vəzifəsini tutmuşdur. 1959-1965-ci illərdə vitse-prezident olmuş, 1959-cu ildən 1980-ci ilə kimi Azərbaycan EA-nın Biologiya bölməsinə rəhbərlik etmişdir. 1949-cu ildən 1987-ci ilə qədər V.R.Volobuyev Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda torpaqların meliorasiyası laboratoriyasının müdiri olmuşdur.

V.R.Volobuyev torpaqların meliorasiyası və meliorativ rayonlaşdırmasını ərazinin geomorfologiyası ilə əlaqələndirmiş və yeni orijinal metoddan-relyefin plastikasından istifadə edərək Azərbaycanın və eləcə də bütövlükdə Cənubi Qafqazın geomorfoloji xəritəsini tərtib etmişdir. Görkəmli alim müxtəlif torpaq-iqlim areallarında (səhra və yarımsəhradan izafi nəmlənməyə qədər) əsas iqlim göstəriciləri olan temperatur və yağıntıları tədqiq edərək koordinat sistemində bu suların əlaqəsi hidrotermik sistem əsasında torpaqların qanunauyğun zonal sistemini yaratmışdır.

O, 1955-ci ildə Azərbaycan EA-nın müxbir, 1968-ci ildə həqiqi, həmin ildə isə SSRİ EA-nın müxbir üzvü seçilmişdir. 1958-ci ildə SSRİ EA-nın Rəyasət Heyəti torpaqla iqlim arasındakı qarşılıqlı əlaqələr sahəsindəki işlərinə görə V.R.Volobuyevə V.R.Dokuçayev adına mükafat vermişdir.

V.R.Volobuyev 1967-ci ildə "Torpaq və iqlim", "Azərbaycanın torpaq örtüyünün ekoloqogenetik təhlili" və "Torpaqların ekologiyası" elmi əsərlərinə görə birinci dəfə, 1980-ci ildə isə torpaqəmələgəlmənin energetikası sahəsindəki elmi işlərinə görə ikinci dəfə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. V.R.Volobuyev 10 il SSRİ EA-nın "Poçvovedenye" (Torpaqşünaslıq) jurnalının baş redaktoru olmuşdur.

Görkəmli alimin elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilərək iki dəfə "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu", "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur.

Böyük elmi-təşkilati və ictimai işlərlə məşğulluğuna baxmayaraq, V.R.Volobuyevin elmi fəaliyyəti son dərəcə məhsuldar olmuşdur. O, müxtəlif mövzuları əhatə edən 8 monoqrafiyanın, 250-dən çox elmi məqalənin, çoxlu sayda xəritələrin müəllifidir.

V.R.Volobuyev kadr hazırlığına da xüsusi fikir vermişdir. O, 20 namizədlik və 5 doktorluq dissertasiyasına rəhbər və məsləhətçi olmuşdur. Onun tələbələri bu gün dövlət strukturlarında, elmi-tədqiqat institutlarında müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərirlər.

**- Volobuyevlə əlaqəli hər hansı bir xatirəniz varmı?**

- 1970-ci illərdə V.R.Volobuyev və Q.Z.Əzizovun rəhbərliyi altında "Naxçıvan muldası (təknəvari çökəklik) torpaqlarında təkrar şorlaşma və ona qarşı mübarizə yolları" mövzusunda elmi iş aparırdım. Yadımdadır, plastika ilə əlaqədar mənə tapşırdı ki, Naxçıvan MR plastika xəritəsini tərtib etməli və orada torpaqların yayılma qanunauyğunluqlarını, suların yayılma arealları və onunla əlaqədar əhalinin məskunlaşmasının məhz plastika üsulu ilə əlaqələnməsi asılılığını sübut etməlisiz. O zaman sovet sisteminə uyğun məxfilik mövcud idi. Yəni plastika xəritəsini tərtib etmək üçün topoqrafik əsaslı planşetlərdən istifadə olunurdu. Bu planşetlər isə xüsusi şöbənin nəzarətində xüsusi buraxılış icazəsi olan adamlara verilə bilərdi.

Geoloqlar arasında çox etibarlı dostlarım var idi. Adlarını çəkmək istəmirəm. Onlara vəziyyəti dedim. Eyni vəziyyəti digər bir dostuma (məndən öncə V.R.Volobuyevin tələbəsi) da dedim. Nəticədə o dövr üçün böyük risk hesab olunan 1:100 000 planşetdən horizontları cıqara kağıza köçürmək icazəsi aldım. Sonra tərtib etdiyim xəritə sxemi Volobuyevə təqdim etdim. Xəritə sxemdə çay şəbəkəsi və horizontlar var idi. Başqa heç nə göstərilməmişdi.



**Akademik V.R.Volobuyev (1909-1987)**

Volobuyev xəritənin üzərində əlini gəzdirərək dedi ki, burada yaşayış məntəqəsi olmalıdır. Dedim bəli, bura Sirab kəndinin yeridir. Digərini göstərdi. Dedim bura Xok kəndinin yeridir. Birdən özümdən asılı olmadan Xok kəndi yaxınlığında nöqtə üzərinə əlimi qoyaraq, "burada Böyükdüz kəndi yerləşir" dedim.

Volobuyev qəti olaraq israr etdi ki, ərazidə Duzdağın duzlu süxurlarının müdaxiləsi var, burada şirin su mənbəyi ola bilməz. İnadla israr etdim ki, var. O, səbrlə mənə dedi: - Gedin ərazinin geologiya və geomorfologiyasını öyrənin, sonra mənə məlumat verin.

Qayıtdım Naxçıvana, regionu təkrar öyrəndim, onun fikri təsdiq olundu, amma Böyükdüz kəndi həmin yerdə dururdu. Məlum oldu ki, 1971-ci ildə Araz Su Anbarı istifadəyə verildiyi üçün keçmiş Böyük Duz kəndi su altında qalmasın deyə, indiki yerə köçürülmüşdür. Yəni kəndi yeni yerə köçürmüşlər. Kəndə su isə qonşu Xok kəndindən gəlir. Qayıtdım Bakıya, Vladimir Radionoviçə vəziyyəti dedim və üzr istədim. O, mənə dedi ki, əsas məsələni - həqiqəti öz gözünlə gördün.

Hər dəfə elmi işimlə əlaqədar Bakıya laboratoriyaya gələndə ilk olaraq mənim məruzəmi dinləyərdi. Oradakı yoldaşlara məni göstərərək "o, uzaqdan gəlib" deyərdi.

Yadımdadır, təkrar şorlaşma və şoran torpaqların yuyulması ilə məşğul olarkən Volobuyev mənə dedi: "Professor Muxtar Abduyevlə əlaqə saxla, o, praktik alimdir". Belə də oldu ki, mən Naxçıvanın Böyükdüz və Babək rayonunun Nehrəm kəndi ətrafında "Qavxırın altı" deyilən ərazidə şoran torpaqların yuyulmasını həyata keçirərkən M.Abduyevdən yaxşı məsləhətlər aldım.

Ümumiyyətlə, Volobuyev hər bir alimlə fərdi danışmağı sevərdi. Volobuyev həm də yüksək mədəniyyətə malik şəxsiyyət idi.

Qəbuluna kim gəlirdisə, ayağa qalxar, səmimi görüşərdi. İnsanları səbrlə dinləməyi sevərdi. Hansısa məruzələrdə səhvə yol verirdiksə, o, ustalıqla düzəliş edər, sonra da "siz yəqin belə demək istəyirdiniz" deyərdi.

Torpaqşünaslıq və Aqrokimya İnstitutunun alimləri onun nəzərdə tutduğu elmi tədqiqatların istiqamətinə uyğun işləri uğurla davam etdirirlər.

**Müsahibəni apardı:**
**Nəriman CAVADOV,**
**"Respublika".**